**Səfir Vada Cüniçinin Quba səfəri**

8 iyun tarixində səfir Vada Cüniçi Qubada rəsmi səfərdə olmuş, Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev ilə nəzakət görüşü həyata keçirmişdir. Görüş zamanı kənd təsərrüfatı və turizm kimi sahələrdə Yaponiya ilə Quba rayonu arasında əlaqələrin qurulması imkanları, Qubada həyata keçirilən "Ot kökləri və İnsan Təhlükəsizliyi" qrant proqramı layihələri barədə müzakirələr aparılmışdır.

Səfər zamanı Səfir, Dağ yəhudilərinin kompakt yaşadığı Qırmız Qəsəbə, 2300 metr hündürlükdə yerləşən Xınalıq kəndi, Birinci Nügədi kəndində yapon alma sortları yetişdirilən təsərrüfat, "Qədim Quba" xalçaçılıq müəssisəsi, Quba Soyqırım Memorial Kompleksini ziyarət etmişdir.



c-b Ziyəddin Əliyev ilə nəzakət görüşü



Qırmızı Qəsəbə



Xınalıq kəndi



Xalçaçılıq müəssisəsi